

VAQİF YUSİFLİ

# FÜZULİ SEVGİSİ

## (“Unudulmazlar” silsiləsindən)

**Bəzi dostlarım, tanışlarım və məni şəxsən tanımayanlar televiziya verilişlərində (vaxtilə ”Məclisi-üns”də) Füzulinin qəzəllərini əzbər söyləyəndə ya onun hansı beytinisə bildiyim dərəcədə şərh eləyəndə elə zənn edirlər ki, mən füzulişünasam. Mən Füzulini şeirimizin allahı hesab edirəm, hər dəfə poeziyadan, ya bir müasir şairimizin bir yazı qələmə alanda sanki Füzuli bir müəllim kimi durur başımın üstündə, mən də o müasir şairin şeirlərində ”Füzulidən bir dad, bir duz” axtarıram. Amma mən Füzuli heyranı olsam da, füzulişünas deyiləm. Azərbaycanda böyük füzulişünaslar olub: F.B.Köçərli, Həmid.Araslı, Mir Cəlal, Mirzağa,.Quluzadə, Əkrəm Cəfər, Əli Fəhmi,Fuad Qasımzadə, Samət Əlizadə, Rəfail Hüseynov, Sabir Əliyev, Hacı Mail, Hacı Ələmdar.. indi də Gülşən Əliyeva Kəngərli, Teymur Kərimli. Kamil Vəliyev.Lalə Əlizadə.**

Mənim dahi Füzuli dünyasıyla ilk tanışlığım hardan, nə zaman başlayıb? Mənim Füzuliyə sevgim onu az da olsa duyduğum, dərk etdiyim andan başladı, nə gizlədim, bu yolda füzulişünas Sabir Əliyev (1936-2007) mənə müəllim oldu. Sabir müəllimi tanıyana qədər həmişə fikirləşirdim ki, görəsən müasir dövrdə Əli Fəhmidən, Əkrəm Cəfərdən sonra Azərbaycanda Füzuli sözünü dərk edən neçə söz xiridarı var? Daha bir-iki nəfərin adını çəkə bilirdim, Universitetdə mənim müəllimim olmuş Samət Əlizadənin və Hacı Mailin. Amma Sabir müəllimlə şəxsi tanışlıqdan və onun Füzuli ilə bağlı tədqiqatlarını oxuyandan sonra təsəvvürüm genişləndi. Bizim ilk tanışlığımız isə belə başlandı: Yadımsdadır kui, gözəl şairimiz, hamımızın dostu Xəlil Rza yanında bir kişi ”Azərbaycan”a gəlmişdi. Xəlil Rza o kişini redaksiya əməkdaşlarına təqdim etdi, bu-professor Sabir Əliyevdir-füzulişünas alim, Gəncə Universitetinin müəllimi. Sonra üzünü o zamankı baş redaktorumuz Əkrəm Əylisliyə tutub dedi ki, mənim şeirlərimi qoyun bir qırağa, onları götürüb gedə də bilərəm, amma bu kişinin yazısını çap eləyin. Mən tənqid şöbəsinin müdiri kimi yazı ilə tanış oldum. ”Söhbətül-əsmar” niyə Füzulinin deyildir?” məqaləsi sırf polemika üzərində qurulmuşdu. Sabir müəllim sübut edirdi ki, ”Söhbətül-əsmar”ın Füzulinin əsəri kimi təhlil olunmağı yanlışdır, bu əsər Füzuli külliyyatının toplandığı heç bir əlyazmada müşahidə olunmamışdır, yalnız Əmin AVbid ”Maarif ə mədəniyyət” jurnalının 1926-cı il, 12=ci nömrəsində belə bir poemanın varlığı haqqında elm aləminə məlumat vermişdir. Ən əsası isə odur ki, bir çox türk alimləri də bu poemada Füzuli yaradıfcılığına xas olmayan sənət qüsurları müşahidə etmişlər. Sabir Əliyev də bu mövqedən çıxış edib əsərdə vəzn, qafiyə, dil, ifadə, üslub və digər qüsurları nəzərə çarpdırırdı. Əlbəttə, bu məqaləni birbaşa jurnal səhifələrinə çıxarmaq mümkün deyildi, ona görə də biz onu görkəmli alim-mətnşünas Əziz Mirəhmədova rəyə göndərdik. Bir həftədən sonra Əziz müəllim rəyini yox, bu yazıya cavab olaraq qələmə aldığı ”Söhbətül-əsmar Füzulinindir” məqaləsini redaksiyaya gətirdi. Əziz müəllim də tutarlı dəlillərlə sübut edirdi ki, Füzulinin bu poeması heç kimin deyil, məhz Füzulinindir. Hər iki məqalə ”Azərbaycan” jurnalının 1987-ci il iyul nömrəsində çap olundu. Təbii ki, bu mövzu əks-səda doğurdu, Sabir müəllimə inananlar az olmadı.

Bundan sonra Sabir Əliyevin jurnalımızda Füzuli ilə bağlı digər məqalələri işıq üzü gördü (”Füzulinin Leylisi”, ”Füzulinin bir sözü”, ”Bircə sözün xətası, yaxud Füzulinin dedikləri və demədikləri” və s.) Günlər, aylar, illər keçdi və mən Sabir müəllimin dostu və ”şagirdi” oldum. O, hər dəfə Bakıya gələndə bir yerdə bulvar gəzintisinə çıxır, oradakı çayxanaların birində saatlarla oturub söhbət edərdik. Ən əsas mövzumuz isə Füzulidən və klassik poeziyadan olardı. Mənə Füzulinin istənilən bir qəzəlini şərh edər, sonra da bircə-bircə şairin beytlərini necə mənimsəmişəm dərsini keçərdi. Sabir Əliyev Füzulini bildiyi qədər Qazi Bürhanəddini, Nəsimini, Həbibini, Xətaini, Seyid Əzim Şirvanini, Nəbatini, Zakiri, Sabiri də gözəl bilirdi.Bir gün onunla bir müsahibə apardım, o zaman ”İlham” qəzeti çıxırdı, orada dərc olundu bu müsahibə. O müsahibədən bir-iki məqamı nəzərə çarpdırmaq istəyirəm.

”1960-cı ildən bəri-aspirant, elmi işçi, müəllim olduğum bu illər ərzində Füzuli mənim üçün bütün dünyada birinci şair olmuş və belə də qalmaqdadır. Təsəvvür edə bilmirəm ki, planetimizdə bir də ona bərabər şair peyda olsun. Füzuli sözün əsl mənasında alim-şairdir. O, şeirin alimi, elmin isə şairidir. Füzulini duymamağın və bilməməyin nəticəsidir ki, bu gün şair adı ilə yüzləri, minləri at oynadır, meydan sulayırlar. Bəlaləri səslə sözü qarışdırırlar. Füzuli səs çıxarmayıb, söz çıxarıb bazara: mənalı, musiqili, obrazlı söz! Füzulidə nəyisə qurdalamaq-dəyişmək, artırmaq, azaltmaq, yaxud söz sırasını pozmaq əsla mümkün deyil. Füzulinin şeiri, əslində, şeir həddini aşır: burada şeirin verməyə borclu olmadığı komponentlər də ehtiva olunur: elm, obraz, bədii fəndlərdən biri və bir neçəsi, çoxmənalılıq və s. Nəzərə alınsın ki, söhbət tək bircə beytlik mətn çərçivəsinə aiddir. Füzuli beytləri, bir qayda olaraq, iki qatdan-alt və üst qatlardan ibarətdir. Bunları məxrəc-surət, elm-obraz, özül-divar qoşalıqları ilə də vermək olar. Bir misal:



***Düşməzəm könlünə, yəni olubam öylə zəif***
***Dərdi-eşqinlə ki, güzgudə görünməz əsərim.***

Burada məşuqənin aşiqə laqeydliyindən başqa, orta əsrlərin optik anlayışı da əksini tapıb: olmayan şeylər güzgüdə əks olunmaz”

Sabir Əliyev bu müsahibədə bir az emosional şəkildə söylədiklərini ”Füzulinin poetikası”, ”Füzuli”, ”Füzulinin ədəbi estetikası” monoqrafiyalarında və onlarla məqalələrində elmi ilə əks etdirmişdi.

Onun ən böyük arzusu Füzuli qəzəllərini şərh eləməkdi. İllərlə çalışdı-vuruşdu, nəhayət, 2004-cü ildə ”Adiloğlu” nəşriyyatı tərəfindən ”Füzuli qəzəllərinin şərhi” adlı dördgildlik kitabı çapdan çıxdı.O dördcildliyin ilk nüsxələrini mənə də göndərdi. Sabir Əliyevə qədər, istər Türkiyədə, istərsə də Azərbaycanda Füzuli qəzəllərinin şərhi ilə məşğul olan alimlər və füzulisevərlər olub. Ancaq şəxsi və subyektiv fikrimdir:Sabir Əliyevin şərhləri öz elmi səviyyəsi və hamının başa düşəcəyi mənada seçilir. Söhbətlərimizin birində mən Sabir müəllimə belə bir sual vermişdim: ”Heç olubmu, Füzulini başa düşməyənlər, ya başa düşməkdə çətinlik çəkənlər içinə düşmüsünüz?”. Sabir müəllim dedi ki, belə hallar çox olub. Kim Füzulini hansı səviyyədə dərk edirsə, onu qınamaq olmaz, yəni bildiyi odur və bundan irəli gedə bilməz, amma belə düşünmək də zəiflik əlamətidir. Füzulini az-çox dərk eləmək üçün bir az məlumatlı olmaq tələb edilir, heç olması, dini elmi, asçtronomiyanı, fizikanı, kimyanı, yer elmini mənimsəməlisən. Mənə Füzulinin bir beytini misal gətirdi:

***Bu qəmlər ki, mənim vardır, bəirin başına qoysan,***
***Çıxar kafər cəhənnəmdən, gülər əhli-əzab oynar.***

Dedi ki, Füzuli bu beytdə Quranın bir ayəsindən sitat gətirir: kafirlərin cəhənnəmdən çıxması dəvənin kiçilib iynə ulduzundan keçməsi şəraitində mümkün olacaqdır. Yəni kafirlər heç vaxt cəhənnəmdən çıxa bilməyəcəklər. Quranın 7-ci, Əl-ərat (sədd) surəsinin 40-cı ayəsində deyilir: ”Ayələrimizi yalan hesab edənlər, dəvə kiçilib iynənin gözündən keçməyincə Cənnətə girə bilməyəcəklər”. Füzulinin qəmləri o qədərdir ki, bunları dəvənin başına qoysalar, dəvə iynə ulduzundan keçəcək qədər kiçilər və əhli-əzab cəhənnəmdən xilas olar.

Sabir Əliyevin Füzuli qəzəllərinin şərhində müxtəlif variasiyalılıq nümayiş etdirməsi, bir yozumla kifayətlənməyib, beyt tam qavranılsın deyə onu bütün aspektlərdən şərh eləmək bəlkə də çoxlarına uzunçuluq, hətta baş yormaqlıq təsiri bağışlayırdı. Amma bu onu göstərir ki, Sabir Əliyev Füzulini oxucuya bütöv və dolğun çatdırmaq istəyirdi. Şərhləri oxuyanlar bir şeyə əmin ola bilərlər ki, Füzuli göründüyündən də dərindir. Mən də bir misal gətirmək istəyirəm:

***Ol pərivəş kim, məlahət mülkünün sultanıdır,***
***Hökm onun hökmüdürür, fərman onun fərmanıdır.***

Hər hansı bir füzulisevər oxucu üçün bu beytin mənası gün kimi aydındır: şair demək istəyir ki, o pərivəş ki, bu gözəllik mülkünə sultanlıq edir, deməli, sultan olan şəxsin də hökm və fərman verməyə tam ixtiyarı var nə hökm versə, nə fərman buyursa, öz əlindədir. (Füzulinin başqa bir beyti yadıma düşür: Canə meylin var isə, hökm eylə, təslim eyləyim, Şah sənsən, mən sənin bir bəndeyi-fərmanınəm). Bəlkə Vaqif Yusifli kimi yüzlərlə Füzuli heyranı beyti məhz o cür şərh edər. Amma indi gəlin, Sabir Əliyevin şərhinə diqqət yetirək: ”Aşiq öz sevgilisinə pəri (pərivəş) deyir, pəri olan kəs isə sehrkarlığı ilə gözəllik ölkəsinə sultan da ola bilər. Hökm də, fərman da pərinin ixtiyarındadır. Məşuqə pəri kimi təsvir edildiyindən, o, insanlara hökm edə bilər, pəri və cinni sözü bədii ədəbiyyatda çox vaxt yanaşı işlənmişdir. Füzulinin ”Leyli və Məcnun” əsərində Leyli İbn-Səlamı özündən uzaqlaşdırmaq üçün məktəb günlərində məhz bir pəri (cinni) tərəfindən tilsimləndiyini deyir. Cinniyə əsir olanlar isə onların cəngindən xilas ola bilmsir. Odur ki, hökm də, fərman da həmişə onların əlində olur”

Sabir Əliyev Gürcüstanın Qarayazı rayonunun Qaraçalar kəndində, saz-söz mühitində dünyaya gəlmişdi. Mən israr eləmirəm ki, bu mühitdə yetişən, formalaşan adamlar muğamı saz musiqisi kimi dərindən sevə bilməzlər. Amma əksər qarayazılıların saatlarla oturub saz havalarına necə heyranlıqla qulaq asdıqlarının şahidi olmuşam. Sabir Əliyev isə muğamı çox sevirdi, bəlkə bu sevgi də Füzulidən gəlirdi. Onun Füzuldi sənəti iə bağlı tədqiqatlarında Füzuli və muğam problemi ilə bağlı maraqlı fikirlərlə qarşılaşdım. Hətta bir məqaləsini də buna həsr etmişdi. O məqalədən kiçicik bir misal:

”Mütrib, müğənnim, sürud, qopuz, saz,tar, ud, dəf, kanun, tanbur və s. musiqi terminlərinə Füzuli qəzəllərində və digər əsərlərində tez-tez rast gəlirik. Bir beytində Füzuli musiqinin insan əhvalına dəyişdirici təsirini belə göstərir, ey mütrib, nəğmələrinlə Füzuli xəstəni ağlatma, ahı ilə dünyanın altını üstünə çevirər.

***Səhər bülbüllər əfqanı deyil bihudə gülşəndə,***
***Füzuli naleyi-dilsuzuna ahəng tutmuşdar.***

Hətta nəğməkar bülbüllər də şairin vagirləri, zuyçularıdır”.

Mən bu yazıda Sabir Əliyevin klassikaya hədsiz vurğunluğunu ifadə edən bir fikrini də oxuculara çaidırmaq istəyirəm: ”Klassika şairlər üçün həmişə düzlənmə nöqtəsi, yaradıcılıq meyarı, səfər qiblənüması olduğu kimi, eyni dərəcədə həm də amansız hakim və münsifdir. Nizamidən sonra Nizaminin topuğundan aşağı dayanan əsərlə yaşamaq olmaz. Füzulidən sonra onun təqlidini çıxarmaqla ancaq gülünc vəziyyətə düşmək olar. Sabiri sönük şəkildə yamsılamaq və hətta ondan bir neçə mərtəbə aşağıda dayanmaq şərəf yox, rüsvayçılıq gətirər”.

Sabir müəllimin ölümü məni və dostlarını sarsıtsa da, bir şeydən təsəlli tapırıq ki, onun Füzuli sevgisi ölmədi, o sevgi bizə də keçdi (hətta məni Füzuli xəstəsinə çevirdi) Füzuli sözü kimi əbədi yaşayacaq bu sevgi:

***Lövhi-aləmdən yudum əşk ilə Məcnun adını,***
***Ey Füzuli, mən dəxi aləmdə bir ad eylərəm.***